*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 489-494*

https://doi.org/10.62837/2025.7.489

**VƏFA M. ALLAHVERDIYEVA**
Azərbaycan Dövlət İqtisad Universiteti
vafa_allahverdiyeva@unec.edu.az

## BƏXTİYAR VAHABZADƏNİN YARADICILIQ YOLU

**Açar sözlər: B.Vahabzadə, şair, poeziya, ana dili, yaradıcılıq, vətən, milli dəyərlər**

B.Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli şəxsiyyətlərindən biridir. Onun yaradıcılığının əsasını vətən, millət, xalq azadlığı, milli dəyərlər təşkil edir. B.Vahabzadə vətən və xalq ideologiyasına əsaslanan yaradıcılığı ilə ədəbiyyatımıza yeni ruh gətirmişdir. B.Vahabzadə yaradıcılığının əsasını milli ruh və istiqlal məfkurəsi təşkil edir. Yaradıcılığının ilk illərindən başlayaraq, istiqlal duyğusu, Vətənini, xalqını azad görmək istəyi bütün dövrlərdə öz əksini tapmışdır.

Şairin poeziyasının populyarlığının səbəbi onun azadlıq və birlik mövzusunu bütün yaradıcılığı boyu tərənnüm etməsidir, xalqı milli yaddaşa, milli düşüncəyə söykənməyə səsləməsidir. Millilik, bəşərilik B.Vahabzadə yaradıcılığının ana xətti hesab olunur və onu səciyyələndirən başlıca amillərdən biri odur ki, tarixi baxımdan mürəkkəb bir dövrdə milli ruhda qələmə aldığı əsərləri ilə əbiyyatımızı zənginləşdirmişdir.

## ТВОРЧЕСКИЙ ПУТЬ БАХТИЯРА ВАГАБЗАДЕ

**Ключевые слова: Б. Вагабзаде, поэт, поэзия, родной язык, творчество, Родина, национальные ценности**

Б. Вагабзаде является одной из могущественных личностей азербайджанской литературы XX века. Основу его творчества составляют Родина, нация, свобода народа и национальные ценности. Своим творчеством, основанным на идеологии Родины и народа, Б. Вагабзаде привнёс в нашу литературу новый дух. Основу его творчества составляют национальный дух и идеология независимости. Начиная с первых лет творчества, чувство независимости, стремление видеть свою Родину и народ свободными нашли отражение во все периоды его поэзии.

Причина популярности поэзии поэта заключается в том, что он на протяжении всего творчества воспевал тему свободы и единства, призывал народ опираться на национальную память, национальное мышление. Национальность и общечеловечность считаются основной линией творчества

Б. Вагабзаде, и одной из главных особенностей, характеризующих его, является то, что в исторически сложный период он обогатил нашу литературу произведениями, написанными в национальном духе.

**VAFA M. ALLAHVERDIYEVA**

**THE CREATIVE PATH OF BAKHTIYAR VAHABZADEH**

**Keywords: B. Vahabzadeh, poet, poetry, mother tongue, creativity, homeland, national values**

B. Vahabzadeh is one of the powerful figures of 20th-century Azerbaijani literature. The foundation of his creativity consists of homeland, nation, people's freedom, and national values. With his works based on the ideology of homeland and nation, B. Vahabzadeh brought a new spirit to our literature. The essence of his creativity lies in the national spirit and the ideology of independence. From the early years of his career, the feeling of independence and the desire to see his homeland and people free were reflected in all periods of his poetry.

The reason for the poet's popularity is that throughout his creative path, he glorified the theme of freedom and unity, calling on the people to rely on national memory and national thought. Nationality and universal humanity are considered the main line of B. Vahabzadeh's creativity, and one of the essential factors that characterize him is that, during a historically difficult period, he enriched our literature with works written in the national spirit.

Bütün yaradıcılığı, ictimai fəaliyyəti ilə yaddaşlara həkk olunmuş böyük söz ustası Azərbaycan bədii fikrinin zənginləşməsində böyük rol oynayıb. Bəxtiyar Vahabzadə nəinki Azərbaycanın, bütün türk dünyasının ən qüdrətli söz ustadlarından biridir. Onun əsərlərindəki milli ruh, vətən sevgisi və ədalət axtarışı bu gün də oxucularına güc və ilham verir. Bəxtiyar Vahabzadə poeziyası klassik bir poeziyadır. O, fəlsəfi lirikanın gözəl nümunələrini yaratmış, poetik-fəlsəfi məzmunlu yaradıcılığı ilə poeziyamıza layiqli töhfələr verib, çağdaş milli şeirimizin klassik zirvəsinə yüksəlmişdir. Şeirləri ilə oxucusuna cəsarət aşılayan, hünər oyrədən, həyat dərsi keçən bu müdrik insanın məhəbbət şeirlərində də bir vətənpərvərlik hissi vardır. Millətini, vətənini sevən, xalqının ən çətin günlərində yanında olan, mübarizə meydanında həmişə ön sıralarda yer alan unudulmaz şairimiz bir çoxlarının toxunmağa ehtiyat etdiyi mövzularda cəsarətlə yazırdı, çünki ürəyi yanırdı. Özünün dediyi kimi:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası ancaq ondadır. [1, s.9-10]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 489-494*

Xalqımızın tarixində qədim dövrlərdən bəri müxtəlif mərhələlərdə baş vermiş taleyüklü hadisələr bu müdrik insanın daim diqqət mərkəzində olmuşdur. Haqsızlığa, ədalətsizliyə qarşı üsyan B. Vahabzadə poeziyasının əsas leytmotivini təşkil edir. Görkəmli söz ustası ölkəmizdə sovet imperiyasına qarşı milli azadlıq hərəkatının öncüllərindən biri olub. 1959-cu ildə yazdığı "Gülüstan" poeması ilə iki hissəyə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirərək imperiya pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulub. "Gülüstan" poemasının bizim milli birliyimizin, milli şüurumuzun, düşüncəmizin, vətənimizin hər bir zərrəsinin bizim üçün əziz olmasının gənclərə çatdırılmasında böyük əhəmiyyəti oldu.

Bu gün biz B. Vahabzadənin arzuladığı azad, müstəqil, artıq suverenliyini tam bərpa etmiş Azərbaycanda yaşayırıq. Onun fikri, amalı, düşüncəsi azad Azərbaycan idi, türk dünyasının yüksəlişi idi. B. Vahabzadənin yaradıcılığında vətənə, torpağa bağlılıq, eləcə də türk xalqlarının birlik, bərabərliyi əsas yer tutur.

Azərbaycan xalqının müstəqillik ideyalarının ilk carçılarından olan B. Vahabzadə 20 Yanvar faciəsi ilə bağlı qələmə aldığı "Şəhidlər" poeması ilə yeni bir tarix yazdı. Bu poema Azərbaycan milli azadlıq ədəbiyyatının ən kamil nümunələrindəndir. Əsərdə 20 Yanvar hadisələrində şəhidlərimizin göstərdikləri misilsiz qəhrəmanlıqlardan bəhs olunur:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü silaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...[1,370-416]

Şairin poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətləndirməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynayıb. B. Vahabzadə yaradıcılığı boyu özünü bütöv və böyük Azərbaycanın milli şairi kimi dərk edib və bu missiyanın daşıyıcısı olması ilə qürur duyub. Şair üçün vətən sevgisi, milli dəyərlər, dilin qorunması hər zaman xüsusi qiymət kəsb edib. Şairin yaradıcılığında milli oyanış, xalqın azad yaşamaq haqqı əsas yer tutur. B. Vahabzadənin "Azərbaycan oğluyam" şeiri vətənpərvərliyin, mənəvi ucalığın ifadəsidir. Şairin vətənə bağlılığı, azərbaycanlılığı ilə qürurlanması və milli dəyərlərə ehtiramını əks etdirən bu misralar əvəzsizdir:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam:

Od kimi istiqanlı,
Seltək dəliqanlıyam.
Həyat qədər qədiməm,
Torpaq qədər şanlıyam.
Od kimi yandıranam.
Su kimi söndürənəm
Məni yandırsalar da,
Suda batırsalar da,
Yenə mənəm, mən mənəm! [1,31-35]

Ana və ana dili mövzusu B. Vahabzadənin yaradıcılığında önəmli yer tutur və şairin müxtəlif illərdə qələmə aldığı “Ana dili”, “Ana və şəkil”, “Ana türbəsi”, “Mənim ana dilim”, “Latın dili”, “Riyakar”, “Üz-astar”, “Şair”, “Özgə” şeirləri, “Mərziyyə” poemasında öz əksini tapıb. Ana dilimizin keşiyində duran, onu yorulmadan təbliğ edən böyük şairimizin fikrincə, dil xalqın varlığının nişanələrindən biri olub, onun ən qiymətli sərvətidir, üstəlik nəsil silsiləsini birləşdirən, babaların vəsiyyətini nəvələrə çatdıran qüdrətli tərbiyə vasitəsidir. Görkəmli şairimizin ana dilimizin inkişafı, onun saflığının qorunması, doğma dilimizin haqsız hücumlardan müdafiə olunması, dilə biganə münasibət, ana dilli məktəb, xarici dillərin öyrədilməsi və s. barədə düşüncələri “Ana dili”, “Oğluma”, “Latın dili”, “Uzun illər boyu öz vətənindən”, “Mənim ana dilim”, “Özümdən özümə şikayət”, “Hara gedir sabahımız”, “Özgə”, “Fəxriyyə” və başqa şeirlərində və bir sıra məqalələrində öz əksini tapmışdır. B.Vahabzadənin qənaətinə görə milli dilini bilməyən insan millətin ruhuna, mənəviyyatına və tarixinə yaddır və millətin övladı deyil. Beləliklə də, şair ana dilini xalqın mənəvi varlığının, tarixi yaddaşının daşıyıcısı olan qüdrətli bir nemət kimi mənalandırır, onu yaşatmağı, daha da zənginləşdirməyi hər bir vətən övladının qeyrəti, namus sınağı kimi mənalandırır. Milli dil, milli qürur, milli təəssübkeşlik, milli dəyər, milli mənafe, milli düşüncə-bütün bunlar böyük şairimizin nəfəs aldığı sahələr, amillər idi. Bəxtiyar Vahabzadə şair kimi də, ictimai xadim kimi də, vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olaraq tanınırdı.

B.Vahabzadə lirikası ilə yanaşı, onun poemaları da diqqətəlayiqdir. O, hələ ilk poemalarında insanı mənəvi-psixoloji mühiti ilə vəhdətdə təsvir etməyə çalışırdı. Belə poemaları sırasında “Sadə adamlar” poeması qeyd oluna bilər. “Şəbi-hicran”, “İztirabın sonu”, “Etiraf”, “Həyat-ölüm”, “Dörd yüz on altı” və s. poemaları ədbiyyatımızın təqdirəlayiq örnəklərindən hesab olunur.

"Atılmışlar" poemasında qanunsuz doğduğu körpəsini tərəddüdlər, iztirablar içində atan ana və nankor övladının, ləyaqətsiz oğulun ucbatından qocalar evinə panah gətirən ana taleyin olayı ilə üz-üzə gəlir. Bir tərəfdən atılan körpə, bir tərəfdən atılan ana. Bunları bir-birinə isinişdirib doğmalaşdıran taleyin oxşarlığıdır. Şair,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 489-494*

oxucunun diqqətini bu faciəvi tale qovuşuğunu rəmzi mənaya döndərir və haqlı olaraq deyir:

Küçənin bu tayı-körpələr evi,
O tayı-qocalar sığınacağı.
İnsan möhtac olur başqalarına,
Bir ömürün ilk çağı, bir də son çağı.
Möhtac olan vaxtda möhtacı atmaq?
Bu, hansı kitabda yazılıb, deyin?
Vicdanı unutmaq, insafi satmaq
Bəlkə, ölçüsüdür müasirliyin? [2, 244]

B.Vahabzadə yaradıcılığında bəşəri mövzularla yanaşı, beynəlxalq aləmin ən mühüm hadisələri, dünyəvi-qlobal münasibət xüsusi yer tutur. B.Vahabzadə yalnız poeziya sahəsində yox, dramaturgiya sahəsində də ardıcıl yaradıcılıq fəaliyyəti göstərmiş bir sənətkardır. Onun qələmindən "İkinci sas", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Rəqabət" və s. pyeslər çıxmışdır və bu pyeslər milli teatrın səhnəsində böyük uğurla oynanılmışdır.

B.Vahabzadə şair və dramaturq olmaqla yanaşı, bütün ədəbi yaradıcılıq illəri ərzində tənqid, ədəbiyyatşünaslıq, publisistika sahəsində də ardıcıl və səmərəli şəkildə çalışmış, ədəbiyyat tarixi məsələlərinin tədqiqi ilə məşğul olmuşdur. Onun ədəbi fəaliyyətinin bu sahəsindən söz açarkən heç şübhəsiz, ilk növbədə, XX əsr Azərbaycan poeziyasının klassiki S.Vurğun irsinin öyrənilməsinə həsr olunan tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Hələ ilk tədqiqatını - namizədlik dissertasiyasını o, "S.Vurğunun lirikası" mövzusunda yazmışdır və 1951-ci ildə müdafiə etmişdir. Sonrakı illərdə yenə böyük şairin yaradıcılığına müraciət edərək, bu dəfə özünün doktorluq dissertasiyasını yazmışdır. B.Vahabzadə "Xalq şairi Səməd Vurğun" (1956), "Səməd Vurğun" (1968) monoqrafiyalarının müəllifidir. Bundan əlavə, B.Vahabzadə müasir tənqidlə də ardıcıl məşğul olan sənətkardır. Onun "Sadəliklə böyüklük" (1978), "Vətən ocağının istisi" (1982), "Dərin qatlara işıq" (1986), "Ləyaqət" (1998), "Zaman va mən" (1999) kimi ədəbi-tənqidi məqalələrindən,publisistik çıxışlarından ibarət kitabları nəşr olunmuşdur.

Ədəbiyyatşünaslıq sahasindəəki fəaliyyəti ilə B.Vahabzadə Azarbaycan Milli Elmlər Akademiyasının həıqiqi üzvü səviyyəsinə yüksəlmişdir. Bədii və elmi yaradıcılıqla yanaşı, B.Vahabzadə həm da görkəmli bir ictimai xadimdir. O, dəfələrlə keçmiş Azarbaycan SSR Ali Sovetinin, müstəqillik dövründə isə Milli Məclisinin deputatıı seçilmişdir. Şairin əsərləri Dövlət mükafatına layiq görülmüşdür. Ədəbi ictimaiyyət qarşısında xidmətlərinə görə ordenlərlə təltif olunmuşdur.

B.Vahabzadə yüz illər boyu formalaşmış yüksək milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması naminə gözəl əsərlər yaratmış, çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına böyük töhfələr vermişdir. Xalq şairi B.Vahabzadə öz dəyərli əsərləri ilə müasir Azərbaycan ədəbiyyatının inkişafında çox böyük xidmətlər göstərib. Şairin mübariz qələmi bütün dövrlərdə onun saf məslək və əqidəsinə xidmət edib. Azərbaycan xalqının , bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, xalq şairi B.Vahabzadənin adı təkcə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda mütəfəkkir şair, lirik dramaturq, istedadlı alim və publisist, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi məşhurdur.

Bu gün xalq şairi B.Vahabzadənin anadan olmasından 100 il ötür. Şairin əsərləri- şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovet Birliyi xalqlarının dillərinə tərcümə edilib.

## Ədəbiyyat

1. Vahabzadə B. Axı, dünya fırlanır..., “Kitab klubu”, Bakı, 2019
2. Vahabzadə B. Seçilmiş əsərləri, I cild, “Öndər” nəşriyyatı, Bakı, 2004
3. Vahabzadə B. Əsərləri, III cild, “Azərbaycan” nəşriyyatı, Bakı, 2002
4. Mirzəyeva A. Azərbaycan istiqlal poeziyası, Bakı, 2020
5. Əsgərli Ə. Bəxtiyar Vahabzadə. Həyatı, mühiti və yaradıcılığı, “Elm və təhsil”, Bakı, 2022
6. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik, “Nurlan” nəşriyyatı, Bakı, 2007
7. Həsənov H. Azərbaycanın Bəxtiyarı, yaxud “Gülüstan”dan “Şəhidlər”ə gedən yol, Bakı, 2009

**Rəyçi: f.e.d., prof.T.Ə.Əbdülsəsənli**